

# QARABAĞA GƏLMİŞƏM

*Əvəz Mahmud Lələdağ*
*Şair,dramaturq,publisist.*
*SDU-nun müəllimi*

*Ali Baş Komandan,milli sərkərdə,*
*Şad xəbər çatdırdı doğma millətə.*
*Onu qorxutmadı o "səs-küy" ,"hədə",*
*Alqış cəsarətə ,alqış qeyrətə.*

*Eşq olsun Vətənin igid oğluna,*
*Düşmənin başına alov yağdırdı.*
*Anasının südü halaldır ona,*
*Bizim arxamızda dağ kimi durdu.*

*10 Noyabr,Şanlı Qələbə günü,*
*Dünya bu zəfəri aldı qələmə,*
*Müzəffər ordumuz əzdi düşməni,*
*Ölkə vida dedi dərdə,ələmə.*

*30 il Dözmüşük dözülməz dərdə,*
*Dərdimiz əridi,qazandıq zəfər.*
*Şəhidlərin qanı qalmadı yerdə,*
*Ordumun zəhməti getmədi hədər.*

*Şəhidlər önündə baş əyirik biz,*
*Yurdumdan sovuşdu cəfalı həyat.*
*Şəhidi unutmaz heç vaxt nəslimiz,*
*Xalqımız sürəcək səfalı həyat.*

*Alqış millətimin sıx birliyinə,*
*"El bir olsa dağ oynadar yerindən",*
*Alqış əsgərimin igidliyinə,*
*Düşməni çevirdi öz məhvərindən.*

*Vətən qəlbimizin kövrək yeridir,*
*Çox şükür İlahi,döndüm Vətənə.*
*İndi doğma yurdum öz əlimdədir,*
*Toz-torpaq silinib, təmizdir yenə.*

***

*Sənin varlığına şükür,Yaradan,*
*Yolumu kəsmişdi qatı duman,çən.*
*Qatil baş götürüb çıxdı aradan,*
*Dünyanın gözündə böyüdü Vətən.*

*Otuz il az deyil,ayrı düşmüşəm,*
*İsti ocağımdan, obamdan, Allah.*
*İnan, kipriyimlə od götürmüşəm,*
*Bezmişəm o çəndən, dumandan, Allah.*

*Vətən deyə-deyə köçdü dünyadan,*
*Mənim gözəl anam,ağbirçək anam.*
*Axır kı, gözünü çəkdi dünyadan,*
*Hər sözü,söhbəti gül-çiçək anam.*

*Mindim yel qanadlı köhlən belinə,*
*Yarası sağalan torpağa gəldim.*
*Gəldim Xanqızının doğma elinə,*
*Elə bil ,Kəbəyə,Turdağa gəldim.*

*Silinməz iz qoyub Pənah xan burda,*
*Ondan yadigardı Şuşa Qalası.*
*Heç vaxt tapşırmayıb qoyunu qurda,*
*Bilirdi kimlərdi onun bəlası.*

*Görüşlər keçirib Cıdır düzündə,*
*Ordan qidalanır yazılan tarix.*
*Hər yerdə hünərlə deyib sözün də,*
*Heç vədə qoymayıb pozula tarix.*

*Bu gün əlimizdən tutdu Pənah xan,*
*Erməni yalanı diz çökdü, yandı.*
*Ali Baş Komandan eylədi bəyan,*
*Qarabağ tarixən Azərbaycandı!*

***

*Məndən Qarabağı dedim, çox umma,*
*Qarabağın Xanı Qarabağdadır.*
*Ona yaxın durma, ona toxunma,*
*Elimin Soltanı Qarabağdadır.*

*Döyünən ürəyim, danışan dilim,*
*Dünyanı mat qoyan Xarı bülbülüm,*
*Cənnətim, gülşənim,ətirli gülüm,*
*Dərdimin dərmanı Qarabağdadır.*

*Qarabağ günəşim, ulduzum, ayım,*
*İlkin sevgi payım, məhəbbət payım.*
*Qılıncım, qalxanım,kamanım, yayım,*
*Koroğlu meydanı Qarabağdadır.*

*Babamın babası yaşayıb burda,*
*Fərhad külüng çalıb, daş oyub burda.*
*Çiynində el yükü daşıyıb burda,*
*Yurdun mərd insanı Qarabağdadır.*

*Qarabağ anamdı, bacımdı mənim,*
*Qarabağ qüdrətim, gücümdü mənim.*
*Qarabağ əl çatmaz tacımdı mənim,*
*Allahın Quranı Qarabağdadır.*

*Çəkil Qarabağdan, sən ey qəsibkar,*
*Səndə nə namus var, nə qeyrət,nə ar.*
*Mənimdi gözünlə gördüyün nə var,*
*Musiqimin canı Qarabağdadır.*

*Qarabağ tarixən Azərbaycandır,*
*Qarabağ qəlbimdi canımda candı.*
*Qarabağ sehirli nəqşi cahandı,*
*Şair Xurşudbanı Qarabağdadır.*

***

*İşıqlı dağında duman,çən olam,*
*Qaragöl sınaqdan mətin çıxıbdı.*
*Ağrıdan-acıdan, Allah,gen olam,*
*Əsgərlər Şuşaya çətin çıxıbdı.*

*Şuşanın varlığı dünyadan bizə,*
*Şuşa Qarabağın görən gözüdür.*
*Şuşada yad ünsür görünməz gözə,*
*Şuşa xalqımızın telli sazıdır.*

*Məscidi nurlandı Gövhər ağanın,*
*Göylərə ucaldı gur azan səsi.*
*Üzünə üz qoydum ana torpağın,*
*Doldu ciyərimə ılıq nəfəsi.*

*Natəvan,Üzeyir qutardı qəmdən,*
*Vaqifin, Bülbülün ruhu şad oldu.*
*Arzunuz çin oldu,gül açdı Vətən,*
*Fəlakət,faciə bizə yad oldu.*

*Nəcəf bəy,Həsən bəy gəldi Şuşaya,*
*Sevincdən çağladı göz yaşı axdı.*
*Mir Mövsüm Nəvvab da çatdı bu haya,*
*Ulduzlar sayrışdı,şişəklər çaxdı.*

***

*Yağının qəsdini bilirdim hər an,*
*Quldurlar bağımı talan eylədi.*
*Gül dərə bilmədim köünl bağımdan,*
*Məni öz yurdumdan kənar eylədi.*

*Qaçqınlıq,köçkünlük oldu qismətim,*
*Kim çəkə bilərdi mən çəkən dərdi.*
*Qoymadım əllərdə qala ismətim,*
*Qalsaydı ürəyim çoxdan ölərdi.*

*Bilmirəm nə gündə doğulmuşam mən,*
*Alnımı bürüyüb xəcalət təri.*
*Ürəyim ocaqdır, çox yanmışam mən,*
*Artıq yola saldım o nəhs illəri.*

*Elə gün olmayıb salmayım yada,*
*Qurtardı yurdumun dərdi, bəlası,*
*Sovuşdu yox oldu bu qan, bu qada,*
*Yaşasın Vətənin igid balası.*

*Doğma yurd günəşdir, aydır gözümdə,*
*Ağzım duadadır,əlim göydədi.*
*Yenidən nurlandı gördü gözüm də,*
*Bildim səma nəsi, mavi göy nədi.*

*Gecənin yuxusu yad idi mənə,*
*Sağlam çətin bilər, mənim dərdimi.*
*Əridə bilmirdim,ata bilmirdim,*
*Ömrümə, günümə qənim dərdimi.*

*Bizə xor baxanın gözü tökülsün,*
*Sərt tufan,qasırğa yolunu kəssin.*
*Bizim ürəyimiz eşq ilə gülsün,*
*Vətən məhəbbəti coşsun, kükrəsin.*

***

*Göyərçinlik solub, göyərçin yoxdu,*
*Minlərlə göyərçin birdən uçardı.*
*Didilmiş, dağıdılmış boş yuva çoxdu,*
*Burda addıma bir dovşan qaçardı.*

*Məmmədalı gölü,Mütəllim gölü,*
*Sizdə halay vuran sonalar hanı.*
*Hanı Əriməzin gur axan seli,*
*Sellə üzləşdiyin son anlar hanı.*

*Ay Maraldərəsi,Ay Şükürbəyli,*
*Gəlmişəm sizə də baş çəkəm indi.*
*Hanı çoban Balay,çalmır tütəyi,*
*Kimlər viran qoyub o boyda kəndi.*

*Arada çıxardım bulaq başına,*
*Həmdəmim olardı qoca Beşbulaq.*
*Üzümü sürtərdim bulaq daşına,*
*Gözümdə ucaydı, uca Beşbulaq.*

*Dəryazla ot çalıb, xotma qoyardım,*
*Qara avtafada çay dəmləyərdim.*
*Gül-çiçəkli çaydan içib doyardım,*
*Dərgaha üz tutub şükür deyərdim.*

*Bu da Qaraçınqıl, bura da Maldaş,*
*Burda kotan qoşub yer şumlamışam.*
*Dərd çoxdu, hansını söyləyim,qardaş,*
*Burda bir gözəli ovsunlamışam.*

*Mən bu otuz ildə nələr çəkmişəm,*
*Nələr çəkdiyimi bir Allah bilir.*
*Sənin varlığına şükür İlahi,*
*Bu gün dağ da, daş da üzümə gülür.*

*Danışa bilmirdim gülə bilmirdim,*
*Elimi obamı itirmişdim mən,*
*Öz doğma yurduma gələ bilmirdim,*
*İçimdə qəm kolu bitirmişdim mən.*

*Dünyaya göz açdı otuz il əvvəl,*
*Vətən keşiyində dayanan nəvəm.*
*Bir əldən səs çıxmaz kasıbdı bir əl,*
*El bir olsa dağ oynadar yerindən.*

*Bu birlik bir dəmir yumruğa döndü,*
*Əzdi ilanların ilan başını.*
*Bu birlik nizəyə, xəncərə döndü,*
*Kəsdi başkəsənin ,inan başını.*

***

*O quduz vəhşilər dönüb ac qurda,*
*Yerlə yeksan edib bizim kəndləri.*
*Dağılıb,məhv olub dünyalar orda,*
*Kənddən əsər yoxdu, qalıb kənd yeri.*

*Məscidlərdən azan səsi kəsildi,*
*Dıqalar toy tutdu Allah evinə.*
*Onlar insanlığa qənim kəsildi,*
*Nə haqqa inandı, nədə ki dinə.*

*Babalar heç vədə yanılmayıblar,*
*Bizə ayıq-sayıq olun deyiblər.*
*Hayları amansız, qəddar sayıblar,*
*Onlarla dolanmaq yolun deyiblər.*

*Yüz ildir sağalmır Vətənin dağı,*
*Arada qövr edir köhnə yarası.*
*Əsib xəzan yeli,soldurub bağı,*
*Aylarla uzanıb güllərin yası.*

*Orda tuğyan edib ahlar,amanlar,*
*Haqsızlığı görüb, haqq dinməz olub.*
*Orda tökülübdü günahsız qanlar,*
*Göydə ulduzlar da görünməz olub.*

*Müzəffər əsgərim son nəfəsində,*
*Qələbə bayrağın basıb köksünə.*
*Elə bil nur saçıb dünya gözündə,*
*Sevincdən,fərəhdən qabarıb sinə.*

*Həmişə gətirib göz qabağına,*
*Övlad ölümündən yanan ananı.*
*Unuda bilməyib bircə an belə,*
*Vətənin dərdini qanan ananı.*

*Düşmənin canını alan əsgərin,*
*Şuşa dağlarından gəlirdi səsi.*
*Vətənin eşqiylə, yanan əsgərin,*
*Sancıldı köksünə naşı gülləsi.*

*Ölüm ayağında, son nəfəsində,*
*O, basdı bağrına qanlı bayrağı.*
*Bir nifrət duası vardı səsində,*
*Qalmasın yurdumda qanlı bayrağı.*

*Ömrün son çağında,qürub çağında,*
*Ürək sözlərini telefona yazdı.*
*Könlü qan ağladı bu torpağın da,*
*Əsgərin xəyalı aləmi yazdı.*

*Ey, Vətən üstümdən kəsmə kölgəni,*
*Öz doğma balandır can verən insanı.*
*Sən qədər sevmirdi, anam da məni,*
*Sən mənim istəkli, əziz anamsan.*

*Əcəl can almağa yaman tələsdi,*
*Bəlkə də bu imiş Haqqdan qismətim.*
*Vətənin üstünə yaz yeli əsdi,*
*Bu idi mənim də arzum,niyətim.*

*Nakam arzularla çatdım məkana,*
*Sevgilim, üstümdə tökmə göz yaşı.*
*Nə qədər can atsan çarə yox ona,*
*Qoydunuz üstümə bir şəhid daşı.*

*Arada gəl məni ziyarət eylə,*
*Qəbrimin tozundan səp üstünə sən.*
*Məzarda kəfənim qanlıdır hələ,*
*Qurbandı Vətənə,yaşasın Vətən!*

***

*Əzizdən əzizsən, mənim Qubadlım,*
*Necə məğrur baxır Hamayqayası.*
*Həmişə yağıya qənim Qubadlım,*
*Qurtardı xeyirlə,şərin davası.*

*Göz-qulaq ol,zaman başqa zamandı,*
*Təmizlənir Qoç Nəbinin səngəri.*
*Yağı düşmən nə anladı,nə qandı,*
*Bir addım da çəkilmədin sən geri!*

*Salam Suqovuşan, suyun bol olsun,*
*Məni məftun edən bilmirəm nədi.*
*Suyun gözəllərin qoynuna dolsun,*
*Hər şey qaydasında, öz yerindədi.*

*Yollar çox hamardı, həm də genişdi,*
*İlan boğazından çıxıb elə bil.*
*Sənə qulluq etmək,şərəfli işdi,*
*Suyuna nur seli axıb elə bil.*

*Sudan korluq çəkdi, bir vaxt torpaqlar,*
*Pusquda dayandı amansız yağı.*
*İndi həyat da var, gözəllik də var,*
*Gözəllik bürüyüb dərəni, dağı.*

*Dostumla görüşdüm orda iş üstə,*
*Ağdamın görkəmi ürək dağladı.*
*Namərdlər qoymayıb daşı daş üstə,*
*Bizi görən kimi quşlar ağladı.*

*Vəhşilər girəndə bizim Ağdama,*
*Dağıtmaq olubdu əməli,işi.*
*Namərdin gözünə, Allah ağ dama,*
*Hər gün çətinləşə gediş-gəlişi.*

*Günü Qərbdən çıxsın, çayı geraxsın,*
*Abad kəndimizə süpürgə çəkib.*
*Onun daz başına ildırım çaxsın,*
*Güllərin ütünə qəzəb, kin töküb*